# Mübahisə — nitq mədəniyyətinin əsas komponenti kimi

**Nərminə Abdullayeva**
*Bakı Slavyan Universitetinin müəllimi*
**E-mail:** dilchilik2001@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. A.X. Ramazanova,
filol.ü.f.d., dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** nitq mədəniyyəti, ritorika, dialoq, diskussiya, mübahisə
**Ключевые слова:** речевая культура, риторика, диалог, дискуссия, спор
**Key words:** speech culture, rhetoric, dialogue, discussion, dispute

Bəllidir ki, nitq mədəniyyəti – ritorika çox qədim və zəngin ənənələrə malikdir. Əslində ritorika, bildiyimiz kimi, natiqlik sənəti haqqında elmdir və təşəkkül tapdığı ilkin dövrlərdə sadəcə natiqlik sənətini və bu sənətə aid olan məsələləri əhatə edirdi. Amma zamanla daha geniş anlam qazanaraq həm də nitq mədəniyyətini, onun nəzəri və təcrübi əsaslarını da ehtiva etməyə başladı.

Haqqında danışacağımız mübahisə anlayışı da nitq mədəniyyətinin və ritorikanın tərkib hissələrindən olub, ünsiyyət prosesinin müəyyən mərhələsində mütləq şəkildə özünü göstərir. Azərbaycanda nitq mədəniyyəti sahəsində mükəmməl tədqiqatlardan biri sayılan “Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika” kitabında mübahisənin nitq prosesindəki yeri dəqiq göstərilmişdir. Prof.F.Şiriyevə görə, ünsiyyətin yaradılması metodikası ardıcıl beş mərhələdən keçir. Onlara nəzər yetirsək görərik ki, mübahisə IV mərhələnin aparıcı elementidir: “Ünsiyyətin IV mərhələsində: a) mübahisə etmək, amma qınamamaq; b) məlumatın məzmununun xüsusiyyətlərindən çox məlumat faktının özünə böyük əhəmiyyət vermək (keyfiyyətin istənilən aşkarlanmasını möhkəmləndirmək); c) daim sizin özünüzün həmsöhbətinizə etibar etdiyinizi nümayiş etdirmək, bütün danışılanların kimsəyə ötürülməyəcəyinə, yalnız ikinizin arasında qalacağına inam nümayiş etdirmək, ç) mübahisə yarandığı halda, onu həmin anda kəsmək olar” (1, 104). Alimin sözügedən tədqiqatında həmin, yəni IV mərhələdə istifadə olunan üsullardan biri də mübahisə anlayışı ilə bağlıdır: “Mübahisəyə çağırış” üsulu ondan ibarətdir ki, siz hər hansı bir səbəb üzündən mübahisə etməyə başlayırsınız, bu halda kəskin fikir mübadiləsi baş verir. Hər iki tərəfin adi etirazları elə bir şərait yaradır ki, tərəflərdən hər biri qarşı tərəfin təsirinə müqavimət göstərir və öz dəlillərini söyləyir. Mübahisə və mövqelərin müdafiəsi həmsöhbətdə öz təsir və ya müdafiə üsullarını yatırmaq meyli doğurur” (1, 105).

Mübahisə nədir? Mübahisə dedikdə, adətən bir mövzu, hadisə, sual və ya problem ətrafında müxtəlif fikirlərin və nöqteyi-nəzərlərin toqquşması nəzərdə tutulur. Çox zaman mübahisə edən tərəflərin hər biri bu toqquşmada öz mövqeyini sonacan qorumağa çalışır.

Polemika dedikdə isə, qarşıdurmada iştirak edən mübahisə nəzərdə tutulur. Kütləvi mübahisənin bir növü kimi də diskussiya özünü göstərir. Diskussiyada əsas məqsəd, polemikadan fərqli olaraq, mübahisədə ortaq məxrəcə gəlmək, qrup şəklində mübahisəli problemin həlli yollarını tapmaqdır.

Mənbələrdə mübahisənin elmi təhlili bu şəkildə verilir. “Mübahisə — müzakirənin iştirakçılarını maraqlandıran problemlərin daha dərin öyrənilməsi istəyi ilə ictimai müzakirəsidir; mübahisə — müzakirə olunan məslələrin hərtərəfli öyrənilməsidir;

mübahisə — sübut və təkzib prosesində fərqli baxışların qarşıdurmasıdır" (2).

"Mübahisə — kommunikativ prosesdir. Bu proses çərçivəsində iştirak edənlərin baxışlarının və mövqelərinin qarşılaşdırılması baş verir. Bu zaman hər bir tərəf müzakirə olunan məsələdə öz düşüncəsini yeritməyə və arqumentlərlə təsdiqləməyə və əks tərəfin fikirlərini rədd etməyə meyllidir" (3).

Mənbələrdə mübahisənin növünə görə təsnifatlarına da rast gəlmək mümkündür. Bu zaman təsnifatda əsas kriteri kimi, bir çox fərqli aspektlər götürülə bilər. Bu münasibətlərin və fikirlərin hamısını ümumiləşdirsək belə bir mənzərənin şahidi olarıq. Mübahisənin təsnifatında iştirak edən kriterilər və bu kriterilər əsasında aparılan təsnifatlar aşağıdakı kimidir:

— *iştirakçıların sayına görə təsnifat*; bu ktiteri əsasında mübahisəni aşağıdakı növlərə bölmək mümkündür:

* *mübahisə-monoloq* – mübahisə edən tərəf özü-özü ilə mübahisəyə girir. Buna başqa sözlə, daxili mübahisə də demək mümkündür;

**mübahisə-dialoq* – bu mübahisədə iki tərəf iştirak edir;

**mübahisə-poliloq* – bir neçə və ya daha çox insanlar arasında baş verən mübahisədir.

- *dinləyicilərinin mövcudluğuna görə təsnifatı*; bu təsnifat zamanı mübahisənin aşağıdakı növləri vardır:

* *dinləyicisiz;*

* *dinləyicili;* bu zaman dinləyicilərin mübahisə obyektinə münasibəti nəzərə alınır;

* *dinləyiciyə nəzərdə tutulmuş*; bu mübahisədə dinləyicilər neytral mövqe tutur, amma mübahisə tam şəkildə dinləyiciyə təsir göstərmək üçün aparılır.

— *mübahisənin məqsədinə görə təsnifatı;* bu təsnifat zamanı aşağıdakı mənzərə meydana çıxır:

**həqiqət üçün mübahisə;*
**kimisə inandırmaq üçün mübahisə;*
**qələbə üçün mübahisə;*
**mübahisə xatirinə mübahisə* və s.

— *mübahisə obyektinin ictimai əhəmiyyəti, yəni mübahisə olunan cisim, predmet və hadisənin aktuallığı baxımından təsnifat;* bu kriteri mübahisənin aşağıdakı növlərini meydana çıxarır:

** ümumbəşəri maraqları əks etdirən mübahisə;*
**kütlənin maraqlarını nəzərə alaraq aparılan mübahisə;*
**ailə münasibətlərini əks etdirən mübahisə;*
**şəxsi maraqları üstün tutan mübahisə* və s.

— *mübahisənin aparılma formasına görə təsnifatı;* bu zaman mübahisənin iki növü fərqləndirilir:

**şifahi mübahisə;*
**yazılı mübahisə.*

— *mübahisənin hazırlıq dərəcəsinə görə təsnifatı;* bu kriteri də mübahisənin iki növünü fərqləndirməyə imkan verir:

* *təşkil olunmuş mübahisələr;* bu zaman mübahisənin keçirilməsi öncədən planlaşdırılır. Bu da mübahisəyə cəlb olunan tərəflərin əvvəlcədən hazırlaşmasına, öz mövqeyini

müəyyənləşdirməyə, mübahisə predmeti ilə yaxından və dərindən tanış olmasına şərait yaradır.

**təşkil olunmamış mübahisələr;* mübahisənin bu növündə yuxarıda qeyd etdiklərimizin heç biri olmur; mübahisə spontan şəkildə və qəfil baş verir. Belə mübahisələr adətən az məhsuldar olur.

Söylənilənlərdən əlavə, qeyd etmək lazımdır ki, mübahisənin psixoloji yönü də prosesdə mühüm rol oynayır. Qədim Çin fəlsəfəsində buna diqqət yönəldilmiş, mübahisə edənlərin motivasiyası məsələsi işıqlandırılmışdır: "moizm cərəyanının banisi filosof Mo Dinin ardıcılları mübahisənin aşağıdakı şərtlərini nəzərdən keçirirdilər:

a) əgər mülahizələr eynidirsə, deməli mübahisə ola bilməz;

b) eyni bir məsələ haqqında müxtəlif mülahizələr mövcuddursa, mübahisə yaranır;

c) mübahisədə fikri həqiqətə uyğun olan şəxs qalib gəlir və s." (1).

Qədim Yunanıstanda mübahisənin öyrənilməsi artıq bir elmi sahəyə çevrilmiş və sofistlər mübahisəni elmi müstəvidə tədqiqat predmetinə çevirməyi bacarmışlar.

Mübahisənin tərkib hissələri. Müxtəlif kriterilər əsasında təsnif edilərək növlərə ayrılan mübahisənin özü də mürəkkəb bir struktura malikdir. Nitq mədəniyyətinin, habelə natiqlik sənətinin bir sıra anlayışları birbaşa mübahisə ilə əlaqədar olur və onun tərkib hissələrinə çevrilir. Onlardan bir neçəsinə nəzər salaq.

Əvvəla, hər bir mübahisədə tərəflər öz həqiqətlərini yeritməyə və təlqin etməyə hazır olurlar və qarşılarına da bu məqsədi qoyurlar – öz doğruluqlarını sübut etmək. Bunun üçün isə, yəni doğru olduqlarını sübut üçün isə iki vasitə mövcuddur. Bunlardan birincisi – *inandırma və ya məsləkdir.* Yəni insanı mübahisə zamanı hansı hisslər idarə edir. Bir neçə insani istək vardır ki, mübahisə zamanı qalib gəlmək üçün həmin istəklər nəzərə alınır: fiziki rifah (özünümühafizə və ya özünümüdafiə); ictimai maraqlar (ailə, cəmiyyətdəki nüfuz və ya avtoritet, səlahiyyət); əyləncə; özünə hörmət hissi və s.

İkincisi isə, *sübutdur. Sübut* – mübahisədəki məntiqi hərəkətdir. Mübahisə zamanı istifadə edilən sübutun da bir neçə növü ola bilər: bilavasitə (yəni birbaşa) və bilvasitə sübutlar. Sübutun bu növləri mübahisənin aparılması üsullarına görə fərqləndirilir. Gəlinən nəticələrin formasına görə isə sübutun induktiv və deduktiv növləri fərqləndirilir.

Sübut özü də tərkib hissələrə malikdir. Bunlardan ən əsası – *arqumentdir.* Arqument (əslində mənası elə sübut deməkdir, amma bu halda *dəlil* nəzərdə tutulur), hər bir sübutun tərkib hissəsi və aparıcı elementidir. Arqument hər zaman həqiqətəuyğun olur, təsdiq edilmiş olur, bu səbəbdən də asanlıqla hər bir mübahisədə istifadə edilə bilər.

Arqumentlərin bir neçə növü mövcuddur:

— güclü arqument – heç zaman tənqidə yer qoymaz, onları təkzib etmək mümkün deyildir. Güclü arqumentlər hər zaman nəzərə alınır. Güclü arqumentlər sırasına həqiqətə əsaslanan faktlar, sənədlər, qanunlar, nizamnamələr və s. daxildir.

— zəif arqumentlər – mübahisə edən tərəflər arasında şübhə hissinə yol verir. Bu zaman həqiqətə əsaslanmayan nəticələr meydana çıxa bilər.

— tutarsız və ya qeyri-qənaətbəxş arqumentlər – bu arqumentlər mübahisə zamanı işlənəndə əslində opponenti, yəni bu arqumenti istifadə edənin özünü ifşa etməyə yardımçı olur.

Fikrimizi "Qurani-Kərim"də dialoq-mübahisəyə olan bir münasibətlə bitirmək istəyirik. "Qurani-Kərim"in Nəhl surəsinin 125-ci ayəsində oxuyuruq: "Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq

şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!" (4). Gördüyümüz kimi, müqəddəs kitabımız da istər müzakirənin, istərsə də mübahisənin qarşılıqlı səmimiyyət əsasında qurulmasını, hikmətə, nəsihətə əsaslanmasını təbliğ edir. Məhz bu halda hər hansı bir mübahisə prosesinin uğurla nəticələnəcəyini gözləmək mümkündür.

**Məqalənin aktuallığı.** Üç min illik tarixi inkişaf yolu keçmiş ritorika sənətinin öyrənilməsi, onun tarixinə nəzər yetirilməsi, bu sənətin formalaşmasına zəmin yaradan sosial-siyasi aspektlərin tədqiqi dilçilik elminin hər zaman öz aktuallığı ilə cəlb edən problemlərindən olmuşdur. Məqalədə üzərində dayanılan problem – mübahisənin nitq mədəniyyətindəki yerinin müəyyənləşdirilməsi isə ikiqat elmi əhəmiyyətə malikdir. Çünki nitq mədəniyyətini, ritorikanı təşkil edən komponentlərin ayrı-ayrılıqda öyrənilməsi daha yeni məqamların ortaya çıxaılmasına şərait yarada bilər.

**Məqalənin elmi yeniliyi.** Məqalədə mübahisənin ritorika elmindəki yeri, mübahisənin dialoji nitqdə, diskussiyadakı mövqeyi öyrənilmişdir. Mübahisə aparmaq qaydaları haqqında nəzəri və praktiki tövsiyələr də tədqiqatda öz əksini tapmşdır ki, bunlar da ümumilikdə aparılan tədqiqatın elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bakalavr və magistr pilləsində təhsil alan tələbələr, nitq mədəniyyəti və xüsusilə də ritorika ilə məşğul olanlar həm nəzəri, həm də praktik baxımdan faydalana bilər.

## Ədəbiyyat

1. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı: Nurlar, 2014.
2. Культура русской речи / Под ред. Л.К. Граудиной и Е.Н. Ширяева. М., 2000. Гл. III.
3. Русский язык и культура речи: Учебник / Под ред. В.И. Максимова. М., 2000. Гл. IV.
4. Qurani-Kərim. Bakı: Qismət, 2004

**Н. Абдуллаева**

## Спор – как основной компонент речевой культуры

## Резюме

Одним из широко распространенных понятий риторики и речевой культуры является спор. Спор составляет синонимичный ряд с такими понятиями речевой культуры, как диспут, дебаты, дискуссия, полемика и др. В данной статье анализируется понятие «спор», его место в культуре риторики. Автор ведет подробную классификацию типов и форм спора. Также исследуются предпосылки возникновения спора, стратегии и тактика спора и др.

**N. Abdullayeva**

## Dispute – as the main component of speech culture

## Summary

One of widespread concepts of rhetoric and speech culture is the dispute. The dispute makes a synonymous row with such concepts of speech culture as a debate, a debate, a discussion, polemic, etc. In this article the concept "dispute", its place of the culture of

rhetoric is analyzed. The author conducts detailed classification of types and forms of a dispute. Also prerequisites of emergence of a dispute, strategy and tactics of a dispute, etc. are investigated.

**Redaksiyaya daxil olub:** 06.05.2019